

# Cəmilin uğurları

Uğur – bu söz hər kəsin ruhuna rahatlıq verir. Uğur – həm də arzudur, niyyətdir. Hər kəs yolunun, işinin uğurlu olmasını diləyir və buna can atır. Bir sözlə uğur ömrümüzün, həyatımızın bəzəyidir. Hər bir qazanılan uğur ömrümüzə xüsusi bir rəng qatır, yaşamaq eşqimizi daha da rövnəqləndirir. Hətta, elə uğurlarımız var ki, o bizi ömür boyunca izləyir, yaşadığımız qədər bizimlədir. Mən sədaqətli dostlarımı da həyatda nail olduğum ömürlük uğur hesab edirəm. Respublikanın Əməkdar artisti Əliağa Sədiyev buna ən dəyərli nümunədir. Biz onunla Ü.Hacıbəyli adına BMA-da eyni dövrdə təhsil almışıq. Birlikdə yaradıcılıq uğurlarımız da olub. Fikrət Əmirov "Laylay", Cahangir Cahangirov "Aylı gecələr", Tofiq Quliyev "Qızıl üzük" və daha bir neçə əsərləri o tarda ifa edərkən, mən fortepianoda müşayiət etmişəm. Tələbə dövrünün belə sıx yaradıcılıq ünsiyyəti bizim Əliağa Sədiyevlə dostluğumuzun uğurlu təməli oldu. Uğurla başlanan bu dostluq yaradıcılığımıza da uğurlar gətirdi. Bu gün hər birimiz sənətdə öz sözümüzü deməklə musiqi tariximizə də uğurlar bəxş etməyə çalışırıq. Bir-birimizin uğuruna da çox sevinirik. Məni sevindirən cəhətlərdən biri də dostlarımın övladlarının uğurlarıdır. Bir neçə illər öncə M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında keçirilən konsertlərin birində balaca bir oğlanın çıxışını izlədim. Bu uşaq Cəmil Sədizadə idi. Dostumuz, Azərbaycan tarının mahir ifaçısı Əliağa Sədiyevin oğlu Cəmil. Əs-




**Atası Əməkdar artist Əliağa Sədiyevlə**

lində Cəmilin musiqi təhsili olduğunu bilirdim. Amma, elə düşünmüşdüm ki, Əliağa özü musiqiçi olduğuna görə oğlunu da bu istiqamətə yönəldib. Cəmilin ifası və sonrakı uğurları məni belə bir qənaətə gətirdi ki, Cəmili musiqiyə onun istedadı yönəldib. İlk uğurlu çıxışından sonra mən daim Cəmili izləməyə davam etdim. Hər dəfə Əliağa ilə söhbətimizin ilk sözü Cəmildir. Çünki onun öz istedadı və zəhməti ilə qazandığı uğurlar elə bizim də uğurumuzdur.

Əziz oxucular, beləliklə, Cəmil və onun uğurları barədə buyurub Siz də tanış olun.

Sədizadə Cəmil Əliağa oğlu 2008-ci ildə Bakı şəhərində anadan olub. 2014-cü ildə Sədizadə Cəmil, R.Hacıyev adına 15 nömrəli onbirillik musiqi məktəbinin fortepiano ixtisası üzrə I sinfinə qəbul olmuşdur. Respublikanın Əməkdar Mədəniyyət İşçisi Məmmədova Tamillanın şagirdi olmuşdur.

2015-ci ildən başlayaraq Sədizadə Cəmilin çox böyük uğurları başlayır. Belə ki, 2015-ci ilin mart ayında Sədizadə Cəmil, Estoniyanın Narva şəhərində keçirilən İ.S.Bax adına Beynəlxalq Müsabiqədə, 2015-ci ilin iyul ayında Bolqarıstanın Primorski şəhərində keçirilən «Avroqreyd» Beynəlxalq Müsabiqəsində I yer tutmuş və laureat olmuşdur. 2015-ci il, noyabrın 06-09 tarixlərində Bakı şəhərində keçirilən, Gürcüstan Respublikasının «Harmoniya» adlanan IV Beynəlxalq Dostluq Festivalında uğurlu çıxışına görə diploma layiq görülmüşdür. Həmçinin, 2015-ci ildən Bakı şəhər Mədəniyyət və Turizm İdarəsinin Departamenti tərəfindən yaradılan «İstedad mərkəzi»-nin üzvüdür.

2016-cı il yanvar ayında İspaniyanın Lloret De Mar şəhərində keçirilən «Qran Fiesta» Beynəlxalq Müsabiqəsində I yer tutmuş və laureat adını qazanmışdır. Sədizadə Cəmil R.Behbudov adına Mahnı Teatrında, 3 may 2016-cı ildə M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında keçirilən «Multikulturalizm» ilinə həsr olunmuş konsertdə Rauf Abdullayevin rəhbərlik etdiyi Ü. Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri ilə çıxış edib. Bütün bu qazandığı uğurlarına görə 2015-ci ildə, həmçinin 2016-cı ildə Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi «İstedadlı Uşaqlar Festivalı» adlı diplomlarla mükafatlandırmışdır.

Sədizadə Cəmil məktəbdə keçirilən silsilə konsertlərdə və məktəbin ictimai həyatında da fəal iştirak edir. 2016-cı ilin dekabr ayında Azərbaycan Respublikasının Dövlət Müstəqilliyinin Bərpasının iyirmi beşinci ildönümünə həsr olunmuş uşaq, yeniyetmə və gənclər arasında keçirilən Respublika Musiqi Müsabiqəsində I dərəcəli diplomla təltif olunub.

2017-ci ilin mart ayında keçirilən V.Kraynev adına pianistlərin II Moskva beynəlxalq





müsabiqəsinin diplomantıdır, həmin ilin may ayında gənc pianoçuların VII Tbilisi Beynəlxalq Müsabiqəsində laureat olub.

2017-ci ilin may ayında Bakı şəhərində keçirilən Gənc Pianoçuların III Respublika Müsabiqəsində yüksək səviyyədə çıxış etdiyinə görə I dərəcəli diplomla təltif olunmuşdur. Həmən ilin mayın 28-də Moskva şəhərində Kreml sarayının Georgiev zalında keçirilən «Nəsillərin melodiyası» V Beynəlxalq Musiqi Festivalında iştirak etmişdir. Burada o, Rusiya Federasıyasının Prezident orkestri ilə L.V.Bethovenin I konsertini (I hissə) ifa edib.

2017-ci il iyunun 21-də Cənab Prezident İlham Əliyevin sərəncamı ilə Prezident Təqaüdünə layiq görülüb.

2018-ci ilin yanvar ayında M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında Rauf Abdullayevin rəhbərlik etdiyi Ü.Hacıbəyli adına simfonik orkestrlə birlikdə «Zirvəyə doğru» adlı solo konsertlə çıxış edib.

2018-ci ilin aprel ayında ISESKO-nun və Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin dəstəyi ilə təşkil edilmiş İslam Dünyası Gənc Klassik Musiqi ifaçılarının (20 yaşa dək) 7-ci Beynəlxalq beynəlxalq festival-müsabiqəsində iştirak edərək I yer tutmuş və laureat adını qazanmışdır.

2018-ci ilin may ayında Fransa dövlətinin paytaxtı Paris şəhərində UNESKO-nun təşkil etdiyi Q.Qarayevin 100 illik yubileyinə həsr edilmiş konsertdə solo nömrə ilə uğurlu çıxış etmişdir.

2018-ci ilin may ayında həmçinin, Gürcüstan Respublikasının Batumi şəhərində «Harmoniya» adlanan Beynəlxalq Dostluq Festivalında uğurlu çıxışına görə diploma layiq görülmüşdür.

2018-ci ilin iyul ayında Heydər Əliyev adına Sarayda, musiqi təhsili üzrə Beynəlxalq Cəmiyyətin (İSME) 33-cü dünya konfrasının açılış mərasimimndə F.Şopenin «Böyük parlaq polonez» əsərini, Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrin müşayiəti ilə ifa edib.

2018-ci ilin noyabr ayında pianoçuların V.Kraynev adına 3-cü Beynəlxalq Moskva Müsabiqəsinin təşkilat komitəsinin dəvəti ilə, dünyaca məşhur pianoçu-pedaqoqlar, Norma Fişer (Böyük Britaniya) və Aleksandr Romanovskinin (İtaliya) açıq uçot dərslərində iştirak edib.

2018-ci ilin noyabr ayında Gürcüstan Respublikasının Tbilisi şəhərində, T.Axobadze adına gənc pianoçuların I Beynəlxalq Müsabiqəsində iştirak etmiş və I yer tutaraq müsabiqənin laureatı olmuşdur.

2018-ci ilin dekabr ayında Musiqili Komediya Teatrında, C.Cabbarlı adına Gənclər Kitabxanasının 90 illik yubileyinə həsr edilmiş tədbirdə solo nömrə ilə çıxış etmişdir.

2019-cu ilin yanvar ayında V.Kraynev adına pianoçuların III Moskva Beynəlxalq Müsabiqəsinin diplomantı olmuşdur.

2019-cu ilin may ayında Bakı şəhərində keçirilən Gənc Pianoçuların IV Respublika Müsabiqəsində laureat olaraq I dərəcəli diplomla, 2019-cu ilin iyun ayında isə Bakı şəhərində keçirilən, «Caspian Etude» Beynəlxalq Musiqi Müsabiqəsində laureat olaraq I dərəcəli diplomla təltif olub.

2019-cu ilin dekabr ayında Moskva şəhrində XX «Şelkunçik» Gənc Musiqiçilərin Beynəlxalq Televiziya Müsabiqəsinin diplomantı olmuşdur.










2020-ci ilin fevral ayında Bakı şəhərində keçirilən, «World Harmony-2020» III Beynəlxalq Musiqi Müsabiqəsində laureat olaraq I dərəcəli diplom, 2021-ci ilin fevral ayında Moskvada onlayn formatda keçirilən, Q.Qarayev adına Beynəlxalq Piano Müsabiqəsində laureat olaraq I dərəcəli diplomla təltif olunmuşdur.

2021-ci ilin may ayından İtaliyada onlayn formatda keçirilən «Orbetello» Beynəlxalq Piano Müsabiqəsində laureat olaraq I dərəcəli diplomla, 2021-ci ilin may ayında isə İsraildə onlayn formatda keçirilən «Scherzo» Beynəlxalq Piano Müsabiqəsində laureat olaraq II dərəcəli diplomla, 2022-ci ilin mart ayında BƏƏ-də onlayn formatda keçirilən «Fujairah İnternational Piano Competition» Beynəlxalq Piano Müsabiqəsində laureat olaraq III dərəcəli diplomla təltif olunmuşdur.

2022-ci ilin aprel ayında, Heydər Əliyev Sarayında, xalq artisti Rauf Abdullayevin rəhbərlik etdiyi Ü. Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrlə birlikdə «Qəlblərin Fatehi» adlı ikinci solo konserti ilə çıxış etmişdir.

2022-ci ilin may ayında, Çexiya Respublikasında onlayn formatda keçirilən 56-cı A.Dvorjak adına Gənc Musiqiçilərin «Concertino Praga» Beynəlxalq Müsabiqəsində yarım finala yüksəlmiş və mükafat olaraq sentyabr ayında Praqa şəhərində qeyd olunan müsabiqənin «Talent Stage» konsertində və Cənubi Bohemiya bölgəsində keçirilən «South Bohemian» musiqi festivalında solo əsərlərlə çıxış üçün dəvət olunmuşdur.



**Xalq artisti**
**Rauf Abdullayevlə birlikdə**

Əlbəttə, belə uğurlara kim sevinməz ki? Bu gün 14 yaşlı Cəmil bu diplom və mükafatlarla yalnız valideynlərini, doğmalarını, dostlarını deyil, onu tanıyan hər kəsi fərəhləndirir. Cəmil kimi istedadlı və zəhmətkeş insanlar xalqımızın mədəniyyət tarixinin qürurverici simalarıdır. Biz iki ifadəni yanaşı işlətdik - istedad və zəhmət. Bu yerdə unudulmaz bəstəkarımız Fikrət Əmirovun müdrik fikirlərindən birini yada gətirək: "istedad bir aləmdir, zəhmət bir aləm. Bu iki aləm bir-biri ilə qovuşanda milli sənət ümumbəşəri sənət səviyyəsinə yüksəlir". Əminik ki, bu gün saatlarla fortepiano arxasında əyləşərək öz ruhunu, ürəyini, sənət eşqini şirmayi dillərdə ifadə edən Cəmil balamız bundan da böyük uğurlara nail olacaq. Axı, o, istedadını zəhməti ilə qovuşduraraq sənətin zirvələrinə doğru irəliləyir. Odur ki, bizim deyəcəyimiz yalnız budur. Sənətin zirvələrinə gedən yolun uğurlu olsun, Cəmil!

Səadət TƏHMİRAZQIZI